UOT 94 (479.24)

# XIX ƏSRİN SONLARINDA "BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYI"NIN NEFT SƏNAYESİ FƏHLƏLƏRİNƏ TİBBİ-SANİTARİYA YARDIMINA DAİR

**P.R.XƏLİLOV**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***rufatya@rambler.ru***

*"Bakı neft sənayeçiləri qurultayı"nın neft sənayesi fəhlələrinə göstərdiyi tibbi-sanitariya yardımı işinin tədqiq olunması aktualdır. Mövzunun tədqiqi zamanı qarşıya qoyulan əsas məqsəd mədən-zavod rayonu fəhlə və qulluqçularının sağlamlığının mühafizə olunması məsələsini araşdırmaq, neft sənayeçiləri qurultayının bu sahədəki fəaliyyətinin xarakterini işıqlandırmaqdır.*

**Açar sözlər:** sənaye, neft, fəhlə, xəstəxana, yardım

Tədqiq olunan mövzuya dair burjua-zadəgan tarixşünaslığında V.N.Bequn, L.Bertensonun [3;4], sovet dövr tarixşünaslığında İ.V.Striqunovun [23], müasir dövr tarixşünaslığında isə Z.S.Eminova, A.S.Quliyeva və F.A.Mollazadə, E.B.Muradəliyevanın [6;12;13] əsərlərində göstərilən problemlə bağlı müəyyən məlumat və qeydlərə rast gəlmək olar. Digər qisim müəlliflərin əsərlərində isə [9;10;24] neft sənayeçiləri qurultayının tibbi-sanitariya sahəsindəki fəaliyyəti işıqlandırılmasa da, neft sənayesində çalışan fəhlələrin əmək və məişət şəraiti ilə bağlı çox geniş məlumatlar verilib.

Neft sənayesi fəhlələrinin tibb müəssələrinə müraciət etməsi onların əmək, məişət, gigiyena və sanitariya şəraiti ilə sıx bağlı olmuşdur. Yəni həmin sahələr ilə bağlı olan problemlər nə qədər çox olurdusa, fəhlələr bir o qədər bədbəxt hadisələrlə üz-üzə qalırdılar.

Həmin dövrdə fəhlələrin yaşayış evlərini əsasən daxma və qazmalar təşkil edirdi. Qazmalarda neft ilə yandırılan sobalardan istifadə olunurdu. Bu sobaların hisi qazmaların onsuz da ağır olan havasını, demək olar ki, tamamilə zəhərləyirdi. Hisli hava ilə nəfəs alan fəhlələr tez-tez ciyər xəstəliklərinə tutulurdular. Bakı neft mədənlərində 2-3 il çalışan fəhlələrin bir çoxunda öskürək, təngnəfəslik əmələ gəlirdi ki, bunlar da get-gedə ağır fəsadlı bronxit və emfizema xəstəliklərinə çevrilirdi [9, 129].

Azərbaycanın sənaye sahələrində fəhlələrin vəziyyəti çox ağır idi. Sənayenin bir çox sahələrində vahid iş günü tətbiq olunmurdu. Bəzi hallarda fəhlələr hətta 14-16 saat da işləməyə məcbur edilirdilər. Belə bir şəraitdə sə-

naye sahələrində çalışan yeniyetmə və qadınların əmək şəraiti olduqca dözülməz idi [24, 103].

Bakının mədən-zavod rayonlarında fəhlələrin mənzilləri kazarmalardan, ailəli fəhlələrin bir hissəsinin kirayə etdiyi daxmalardan, bəzən isə sadəcə olaraq yerüstü damlardan ibarət idi. Acınacaqlı mənzil şəraiti fəhlələrin sağlamlığına mənfi təsir göstərirdi. Darısqallığın və natəmizliyin nəticəsi olaraq kütləvi xəstəliklər minlərlə fəhlənin həyatına son qoyurdu [2, 314-315].

Xəstələnmiş fəhlələr ya fərdi qaydada fəaliyyət göstərən həkimlərə, ya da qəbul məntəqələrinə müraciət edirdilər. Yarıac-yarıtox yaşayış həyatına zorla kifayət edən aşağı əmək haqqı ilə fəhlələrin fərdi qaydada fəaliyyət göstərən həkimlərə müraciət etməsinə çox nadir hallarda rast gəlinirdi. Qəbul məntəqələrinə gəldikdə isə həmin məntəqələrdə əməliyyat palatalarının, isitmə sisteminin və suyun tez-tez olmaması müşahidə olunurdu. Həm də qəbul məntəqələrinin sayı olduqca az idi. Buna görə də xəstəliyə məruz qalmış və ya şikəst olmuş fəhlələr heç bir tibbi-sanitariya yardımı almayaraq əksər hallarda vəfat edirdilər [10, 142-143].

Bakı şəhərində xüsusilə uşaqlar arasında ölənlərin sayının çox olmasına və xəstəliklərin yayılmasına baxmayaraq ayrıca uşaq xəstəxanası yox idi [16].

Neft sənayeçiləri qurultayı tərəfindən tibb müəssisələrinin təşkil olunmasına qədər Bakı neft rayonunda əhaliyə tibbi-sanitariya xidməti göstərilməsi üçün onun nəzdində yerləşən pulsuz ambulatoriyası ilə birlikdə 120 çarpayılıq şəhər xəstəxanası və Qaraşəhərdə Nobel qardaşları zavodunun nəzdində fəaliyyət göstərən ambulatoriya var idi. Həmin ambulatoriya "Nobel qardaşları" şirkətinin vəsaiti hesabına saxlanılırdı. Ambulatoriyada yalnız Nobel qardaşları firmalarının fəhlə və qulluqçularına pulsuz tibbi-sanitariya yardımı göstərilirdi. Göstərilən ambulatoriyaya rəhbərlik edən həkimə xəstələrin evlərinə baş çəkmək vəzifəsi də həvalə olunmuşdu [3, 14].

Mədənlərdə tibbi-sanitariya yardımının təşkil olunması işi neft sənayeçilərindən neftin hər puduna görə tutulan rüsumun tətbiq olunmasına qədər dar çərçivədə inkişaf edirdi. Mədənlərin abadlaşdırılması işi qurultay Şurasının sərəncamına keçdikdən sonra mədən əhalisinin ehtiyaclarının ödənilməsi istiqamətində icra olunan tədbirlər daha mütəşəkkil səviyyədə həyata keçirilirdi [22, 5]. Yuxarıda göstərildiyi kimi, həmin tədbirlər tibbi-sanitariya yardımının təşkil olunmasından, fəhlələr üçün yaşayış evlərinin tikilməsindən, yolların çəkilməsindən, polisin saxlanılmasından, təhsil sahəsində fəaliyyətdən və sairədən ibarət idi [13, 47].

Artıq 1889-cu il yanvarın 1-dən etibarən mədənlərdə tibbi-sanitariya yardımı işinin təşkil olunması qurultay Şurasının ixtiyarına keçdi. 1893-cü il iyul ayının 1-dən başlayaraq mədən əhalisinə tibbi-sanitariya yardımının göstərilməsi lazımi səviyyədə həyata keçirilməyə başlandı [22, 5-6]. Ümumiyyətlə, qurultayın tibbi-sanitariya yardımı aşağıdakı 3 istiqamətdə icra olunurdu [22, 6]:

1) xəstəxana-stasionar müalicə;
2) ambulatoriya müalicəsi;

3) evlərə baş çəkməklə xəstələrə tibbi-sanitariya yardımının göstərilməsi - səyyar xidmət.

1893-cü ilin iyununda qurultay Şurası tərəfindən 40 çarpayılıq Balaxanı mədən [17, 20], 1894-cü ildə isə zavod rayonunda Qaraşəhər xəstəxanaları açıldı [12, 36].

Neft sənayeçiləri qurultayının 1893-cü il üzrə büdcə xərclərindən Balaxan mədən xəstəxanasının və Bibiheybət qəbul otağının saxlanılması üçün 28.000 rubl vəsait ayrılmışdı [1,siyahı 1,iş 22,vərəq-35-arxa].

1895-ci ilin martında qurultay Şurası tərəfindən Ağşəhər ambulatoriyası açıldı. Lakin həmin ambulatoriya və Qaraşəhər xəstəxanası zavod rayonunun kənarlarında yerləşdiklərinə görə, mərkəzi hissədə məskunlaşan zavod fəhlələri tibbi-sanitariya yardımından istifadə etmək üçün həmin tibb müəssisələrinə müraciət edə bilmirdilər. Buna müvafiq olaraq qurultay Şurası "Nobel qardaşları" şirkəti ilə həmin şirkətin sərəncamında olan və Qaraşəhərin mərkəzi hissəsində yerləşən ambulatoriyadan zavod fəhlələrinin də istifadə etməsi barədə razılığa gəldi. Həmin razılığın şərtlərinə görə, qurultay Şurası ambulatoriya üçün muzdlu şəkildə əczaçı köməkçisi tutmalı və hər il həmin tibb məntəqəsinə 800 rubl dəyərində dərmanlar buraxmalı idi ki, bu dərmanların da xərcini "Nobel qardaşları" şirkəti ödəməli idi. Bundan başqa, həmin şirkət əvvəl sərf etdiyi digər xərcləri yenə də öz üzərinə götürürdü. Bu xərclərə həkimlərin əmək haqlarının yarısının ödənilməsi, qəbul otağı üçün binanın, həkim üçün mənzilin verilməsi, feldşer və xidmətçinin saxlanılması daxil idi [17, 111]. 1895-ci ilin sonunda qurultay Şurası kontorunun nəzdində əczaxana da təşkil olunmuşdu. Həmin əczaxana qurultayın tibb müəssələrini müxtəlif dərman və ləvazimatlarla təmin edirdi [18, 108].

1898-ci ildə "Nobel qardaşları" şirkəti yuxarıda göstərilən Qaraşəhərdəki ambulatoriyanı öz ərazisində saxlamaqdan və ona xərc çəkməkdən imtina etdi. Elə həmin il göstərilən ambulatoriya qurultay Şurası tərəfindən Tatosov zavoduna köçürüldü və bu vaxtdan etibarən yalnız Qurultayın vəsaiti hesabına saxlanılmağa başladı. Neft sənayeçiləri qurultayı Qaraşəhər xəstəxanasının nəzdində yerləşən ambulatoriyanı da həmin binaya köçürtdü. Bunun nəticəsi olaraq Qaraşəhər xəstəxanasının binası genişləndirildi [19,s.89].

Qeyd edək ki, qurultayın xəstəxana və ambulatoriyalarında göstərilən tibbi-sanitariya yardımından əlavə, həmin müəssisələrin həkimləri tərəfindən xəstələrin evlərinə baş çəkmə halları da olurdu. Tibbi-sanitariya yardımının bu növü səyyar xidmət adlanırdı. 1898-ci il ərzində mədən və zavod rayonlarında evlərə baş çəkmələrin sayı gündəlik olaraq orta hesabla 40-ı ötüb keçmişdi [20, 69].

Neft sənayeçiləri qurultayı bədbəxt hadisələrə məruz qalmış və xəstələnmiş fəhlələrin qısa müddət ərzində sağalması istiqamətində öz fəaliyyətini davam etdiriridi [20, 69]. Qurultay Şurası tərəfindən 1899-cu il yanvarın 15-də Sabunçu ambulatoriyası [7, 16] və 1900-cu il fevralın 17-də Ramana ambulatoriyası açıldı [14, 130].

1899-cu il ərzində mədən və zavod rayonlarında qurultay Şurasının səyyar xidmət fəaliyyəti gündəlik olaraq orta hesabla 45 dəfə evlərə baş çəkmədən ibarət olmuşdur [7, 18].

Neft sənayeçilərinin ümumi fondunda iştirak etməyən, yəni neftin hər puduna görə tutulan rüsumu ödəməyən firmalar öz müəssisələrində çalışan fəhlələri çox nadir hallarda evlərdə müalicə etdirirdilər. Həmin firmaların xəstələnmiş fəhlələri pulsuz və yaxud çox aşağı qiymətə ya qurultay Şurasının xəstəxanalarında müalicə olunur, ya da bəzi hallarda tibbi-sanitariya yardımından tamamilə məhrum olurdular. Ümumiyyətlə, həmin firmaların xəstəliyə düçar olmuş fəhlələrinin yarıdan çoxu tibbi–sanitariya yardımından tamamilə məhrum olunmuş vəziyyətdə qalırdılar [5, 77-78]

XIX əsrin 90-cı illərinin sonunda neft sənayeçiləri qurultayı tibb müəssisələrinin fəaliyyət dairəsi daha yüksək templə artmaqda davam edirdi. 1900-cü ildə mədən və zavod rayonlarında qurultay Şurasının aşağıdakı tibb müəssisələri fəaliyyət göstərirdi [8, 9]:

1) 110 çarpayılıq Balaxanı mədən xəstəxanası;
2) 30 çarpayılıq Qaraşəhər xəstəxanası;
3) Balaxanı ambulatoriyası;
4) Sabunçu ambulatoriyası;
5) Qaraşəhər ambulatoriyası;
6) Ağşəhər ambulatoriyası;
7) Bibiheybət ambulatoriyası;
8) Ramana ambulatoriyası.

II Qafqaz mədən dairə mühəndisi dəftərxanasının məlumatlarına görə, 1900-cü il ərzində təkçə Balaxanı-Sabunçu sənaye rayonunda baş vermiş 1444 bədbəxt hadisə nəticəsində 1484 nəfər zərər çəkmişdir. Həmin zərər çəkənlərin 847 nəfəri 3 həftəyə, 347 nəfəri isə 3 aya müalicə olunaraq sağalmışdır. Müvəqqəti olaraq 3 aydan çox müddətə əmək qabiliyyətini itirənlərin sayı 19, tamamilə əmək qabiliyyətini itirənlərin sayı isə 210 nəfər olmuşdur. İlk 1-ci sutka ərzində 26, 1-ci sutkadan sonra müalicə olunan zaman isə 35 nəfər vəfat etmişdi. Ümumiyyətlə, bədbəxt hadisələrin 153-ü sahibkarlarin diqqətsizliyi, 607-si fəhlələrin təcrübəsizliyi, 684-ü isə müxtəlif səbəblər üzündən baş vermişdi [11].

Lakin əslində bədbəxt hadisələrə məruz qalanların sayı olduqca çox idi. Bu onunla izah olunur ki, bir çox firmalar həmin hadisələri ört-basdır edərək, mədən nəzarətindən gizlədirdilər [15, 1031].

Neft sənayeçiləri qurultayı təsərrüfatın digər sahələrinə nisbətən tibbi-sanitariya yardımına daha çox məbləğ sərf edirdi. Təsadüfü deyil ki, qurultayın ümumi büdcə xərclərindən tibbi-sanitariya yardımına sərf etdiyi məbləğ 1896 və 1897-ci illərdə bütün ümumi xərclərin 32%-ə, 1898-ci ildə 36%-ə, 1899-cu ildə 35,4%-ə, 1900-cü ildə isə 31,5%-ə bərabər olmuşdur [21, 94].

Beləliklə, sonda belə bir nəticəyə gəlmək olar ki, çar hökumətinin mədənlərdə, zavod rayonlarındakı müəssisələrdə əmək mühafizəsinin tətbiq olunmasının qayğısına qalmaması və sanitar-gigiyenik qaydalarının pozulması

səbəbindən mədən-zavod rayonlarında bədbəxt hadisələrə, xəstəliklərə məruz qalanların sayı azalmırdı. Fəhlələrin yaşayış şəraitinin təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlərin həyata keçirilməməsi də onu göstərir ki, hökumətin müvafiq inzibati idarəçilik orqanları fəhlə sinfinə qarşı etinasız münasibət bəsləyirdilər. Fəhlələrin yeni yaşayış evləri ilə təmin olunmaması onların məişət şəraitini ağırlaşdırırdı. Xüsusilə, epidemiyanın yayılması təhlükəsi zamanı bu daha ağır fəsadlara gətirib çıxarırdı.

Neft sənayeçiləri qurultayının tibb müəssisələrində neft sənayesi fəhlələrinə göstərilən tibbi-sanitariya yardımının ildən-ilə təkmilləşməsinə baxmayaraq, əsas etibarilə həmin təşkilatda təmsil olunan iri firmalar çar hökuməti ilə sıx təmasda olub, fəhlələrə qarşı zidd siyasət yürüdürdülər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA) f.389.
2. Azərbaycan tarixi. 7 cilddə. IV c. (XIX əsr), Bakı: Elm, 2000, 508 s.
3. Бегун В.Н. Краткий исторический очерк развития санитарного дела в г. Баку (краткий отчет о деятельности Санитарного Бюро с 1893 г. по 1901 гг.). Баку: Первая Паровая Типография Т.Н.Шрейбер, 1901. 168 с.
4. Бертенсон Л. Бакинские нефтяные промыслы и заводы в санитарно-врачебном отношении. СПб: Типография П.П.Сойкина, 1897, 69 с.
5. Доклады комиссии, избранной XIV съездом нефтепромышленников для разработки вопроса о привлечении фирм, не платящих попудного сбора к участию в расходах съезда нефтепромышленников на медицинскую помощь рабочим. // Труды XV экстренного съезда нефтепромышленников в г.Баку (с 11-го по 23-е декабря 1900 года). Баку, Типография А.Г.Юзбашева, 1901, с.75-88.
6. Eminova Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2004, 27 s.
7. Хозяйственная деятельность Совета // Отчет о деятельности Совета, избранного на XIII съезде нефтепромышленников. Баку, Типография А.Г.Юзбашева, 1900, с.1-52.
8. Хозяйственная деятельность Совета // Отчет о деятельности Совета, XVI-ому очередному съезду нефтепромышленников. Баку, Типография 1-го Типографского Т-ва, 1901, с.1-40.
9. İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, 281 s.
10. Кафарова З. Формирование рабочего класса Азербайджана. Баку: Nurlan, 2005, 175 с.
11. Газ. «Каспий», 1901, № 181.
12. Кулиева А.С., Моллазаде Ф.А. Градостроительная организация спортивно-медицинского обслуживания города Баку. Баку: Элм, 2002, 244 с.
13. Мурадалиева Э. Кровь земная - нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 с.
14. Журн. «Нефтяное дело», 1900 , № 3, с. 128-133.
15. Несчастные случаи с рабочими на нефтяных промыслах в 1900 году // Журн. Нефтяное дело, 1901, №18, с.1031–1032.
16. Об учреждении в г. Баку детской больницы и общины сестер милосердия. Баку, Газ. «Каспий», 1898, № 254.
17. Отчет о деятельности Совета, избранного на IX съезде нефтепромышленников. Баку: Типография Арор, 1896, 167 с.

18. Отчет о деятельности Совета, избранного на X съезде нефтепромышленников. Баку: Типография Арор, 1897, 149 с.
19. Отчет о деятельности Совета, избранного на XI съезде нефтепромышленников. Баку: Типография Арор, 1898, 126 с.
20. Отчет о деятельности Совета, избранного на XII съезде нефтепромышленников. Баку: Типография А. Г. Юзбашева, 1899, 95 с.
21. Отчет о деятельности Совета XVII–му очередному съезду нефтепромышленников. Баку: Типография 1-го Типографского Т–ва, 1902, 172 с.
22. Отчет врачей промысловой больницы съезда нефтепромышленников. // Труды IX очередного съезда нефтепромышленников в г. Баку (с 24-го октября по 12-е ноября 1894 года). Баку, Типографии: газ. «Каспий», «Арор» и Губернская, 1894, с. 1–44
23. Стригунов И. В. Из истории формирования бакинского пролетариата (70-90-е годы XIX в.). Баку: Академия наук Азербайджанской ССР, 1960, 289 с.
24. Vəliyeva X.T. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda yeyinti sənayesi fəhlələrinin təşəkkülü tarixindən. // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2009, №2, s.101-106.

## О МЕДИЦИНСКО-САНИТАРНОЙ ПОМОЩИ «СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ» НЕФТЕПРОМЫШЛЕННЫМ РАБОЧИМ В КОНЦЕ XIX ВЕКА

**П.Р.ХАЛИЛОВ**

**РЕЗЮМЕ**

В статье приведены примеры несчастных случаев в бакинском нефтепромышленном районе вызванных неправильной организацией работ по охране здоровья и труда, а также отражены различные виды медицинско-санитарной помощи предоставляемых рабочим и служащим, занятых в нефтяной промышленности.

Из общего содержания статьи становится ясно, что «Съезд бакинских нефтепромышленников» в своей политике по отношению к рабочим преследовал свои цели, защищая позиции нефтепромышленной буржуазии. Но, несмотря на то, что это не входило в функции съезда нефтепромышленников, в целом, деятельность этой организации в конце XIX века в сфере здравоохранения можно оценить как положительную.

**Ключевые слова:** промышленность, нефть, рабочий, больница, помощь

## ABOUT MEDICAL-SANITARYAID OF «BAKU OIL INDUSTRIALISTS' CONGRESS» TO OIL-INDUSTRY WORKERS AT THE END OF XIX CENTURY

**P.R.KHALILOV**

**SUMMARY**

The article illustrates carelessness to the health and labour stipulated by inproper organization of work in Baku oil-industrial city, and refects different kinds of medical-sanitary aid to wokers and employees of oil-industry.

The investigations show that "Baku oil-industrialists' congress" pursued its goals, guarding the position of oil-industry bourgeoisie. However, the congress's medical services must be positively valued.

**Key word:** industry, oil, worker, hospital, aid